# COP29 yaşıl və innovativ iqtisadiyyat qurmaq üçün möhkəm təməldir

**BMT-nin İqlim Dəyişikliyi üzrə çərçivə Konvensiyasının Tərəfləri Konfransının 29-cu sessiyasını bu tədbirə ev sahibliyi edən Azərbaycan üçün 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin yaşıl iqtisadiyyata keçid strategiyasının məntiqi davamı kimi qiymətləndirmək olar. Bildiyimiz kimi, konfransın əsas məqsədi qlobal istiləşməni 1.5°C-də məhdudlaşdırmaq üçün tədbirlərin həyata keçirilməsi, iqlimə uyğunlaşma strategiyalarının genişləndirilməsi və dayanıqlı maliyyə mexanizmlərinin qurulması idi.**



Bu missiyaya uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. İki həftə dünyanın ekoloji mərkəzinə çevrilən Azərbaycan təkcə yaşıl enerjiyə keçid deyil, bütün sahələrdə malik olduğu imkanları təqdim etdi. Beynəlxalq birliyin etimadını böyük məsuliyyət kimi qəbul edən Azərbaycan COP29-a cəmi bir il ərzində yüksək səviyyədə hazırlıqlar həyata keçirdi. Təxminən 200 - ə yaxın ölkəni təmsil edən 70 min nəfərə yaxın nümayəndə heyətini qəbul edərək konfrans ölkə tarixində keçirilən ən böyük tədbir oldu və tarixinə daha bir şərəfli tarix yazdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də sosial şəbəkə hesablarında "COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir!" sərlövhəsi ilə paylaşım etdi. Paylaşımda Azərbaycan bir ildən az müddət əvvəl beynəlxalq ictimaiyyətin yekdil dəstəyi ilə COP29-a ev sahibliyi etməkdən şərəf duyduğunu yazır.

COP29 çərçivəsində Azərbaycan özünün güclü külək, günəş və su enerjisi potensialını beynəlxalq arenada tanıtma fürsəti əldə etdi. Bu, dövlətimizin xarici investorları cəlb etməsi və bərpa olunan enerji sektorunda əməkdaşlıq üçün yeni imkanlar yaratmasına yardımçı olacaq. Xüsusilə, Qarabağ və Şərqi Zəngəzur kimi regionlarda yaşıl enerji zonalarının inkişafı daha çox diqqət çəkdi.

Prezident İlham Əliyev tərəfindən aparılan məqsədyönlü siyasət nəticəsində davamlı ictimai-siyasi sabitliyə və sosial-iqtisadi inkişafa nail olan ölkəmiz, qlobal miqyaslı tədbirləri yüksək səviyyədə təşkil etmək potensialını bir daha nümayiş etdirdi. Azərbaycanın COP29 tədbirini yüksək səviyyədə keçirməsi ölkəmizin beynəlxalq tədbirlərdə təşkilatçılıq bacarığını bir daha təsdiqlədi.

"COP29-un müzakirə mövzularından biri də Xəzər dənizində suyun səviyyəsinin dəyişməsi ilə bağlı idi. Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva "Xəzər dənizi hövzəsi: risklərin qiymətləndirilməsi və aradan qaldırılması" mövzusunda dəyirmi masa müzakirələrində iştirak etdi. Tədbirin açılışında çıxış edən Leyla Əliyeva Xəzər dənizinin ətraf mühitinin mühafizəsinin əhəmiyyətini vurğulayıb. Dünya göllərinin ümumi su ehtiyatlarının 40 faizdən çoxunu təşkil edən Xəzər dənizinin malik olduğu zəngin ekosistem barədə tədbir iştirakçılarına məlumat verilib. Leyla Əliyeva Xəzər dənizində yaşanan problemlərin bir sıra canlıların, o cümlədən suitilər, nərə və qızılbalıqların populyasiyasına təsir etdiyini bildirib.

Heydər Əliyev Fondunun vitse-prezidenti IDEA İctimai Birliyi tərəfindən icra olunan müvafiq fəaliyyətlər, o cümlədən "Zəngin hövzələr", "Bir damcı" layihələri və "Blue Marine Foundation" təşkilatı ilə əməkdaşlıq çərçivəsində Xəzər dənizində yaradılan ilk dənizkənarı mühafizə olunan ərazi seçilmiş Qızılağac Milli Parkı ilə bağlı bir sıra məsələlərə toxunub. Qeyd olunub ki, 2011-ci ildən etibarən 7 mindən çox könüllünün yardımı ilə sahilyanı ərazilərdən 120 tona yaxın tullantı toplanaraq təkrar emal edilib.

Ətraf mühitin mühafizəsi sahəsində gənclərin rolunu vurğulayan Leyla Əliyeva Xəzər dənizinin gələcək nəsillər üçün qorunub saxlanılması istiqamətində çalışacaq gənc mütəxəssislərin yetişdirilməsinin əhəmiyyətini qeyd edib. Çıxışının yekununda Leyla Əliyeva Xəzər dənizinin unikal ekoloji sisteminin qorunması naminə monitorinq və davamlı təhlillərin aparılmasının vacibliyini qeyd edərək beynəlxalq ekspertlər və tədqiqat mərkəzlərinin nümayəndələrini birgə layihə və təşəbbüslərlə çıxış etməyə çağırıb. Dəyirmi masa çərçivəsində, həmçinin Bakı Limanının eksperti, CASPISNET-in koordinatoru və həmçinin Elm və Təhsil Nazirliyi Coğrafiya İnstitutunun böyük elmi işçisi c.ü.f.d., Elnur Səfərov tərəfindən müzakirə mövzusu ilə bağlı müxtəlif fikirlər irəli sürülüb.

COP29 Azərbaycanın həm təşkilatçılıq bacarığına, həm də iqlim dəyişikliyi ilə mübarizədə prinsipial mövqeyinə görə seçildi. Artıq verilən yekun qərara əsasən demək olar ki, COP29 müəyyən etdiyi hədəfə çatmış hesab olunur, iqlim maliyyəsi fondu üçün nəzərdə tutulan hədəf -2035-ci ilə qədər hər il 300 milyard dollar toplanması ilə bağlı razılıq əldə olunub və bu vəsaitin ayrılmasını inkişaf etməkdə olan ölkələr inkişaf etmiş ölkələr qarşısında əsas tələb kimi qoydular. Digər tərəfdən COP çərçivəsində hər bir ölkə qlobal istiləşmənin 1,5 C saxlanması, dekarbonizasiya ilə bağlı öhdəlik götürüb və bu öhdəliklərə riayət etmək üçün öz ölkələrində milli səviyyədə müəyyən tədbirlər görməli, ev tapşırıqlarını yerinə yetirməlidirlər. Şübhəsiz ki, ilk baxışdan bu, bir o qədər asan görünməyə bilər, çünki bu tədbirlər paralel aparılmalı, bərpaolunan və yaşıl enerjiyə keçid prosesində ölkələrin iqtisadiyyatlarına az zərər vurmalı, iş yerlərinin ixtisarına səbəb olmamalıdır. Aparılan müzakirələrdən demək mümkündür ki, COP29 çərçivəsində konsensusa gəlindi, iqlim maliyyəsi ilə bağlı ümumi razılıq əldə olundu.

COP29 -un bütün müzakirələri dünyada geniş işıqlandırıldı, tədbirə gələn bütün qonaqlar 12 gün ərzində nümunəvi təşkilatçılığa şahidlik etdilər. Ölkəmizə 200-ə yaxın ölkədən təşrif buyuran xarici qonaqlar həm təşkilatçılığın olduqca yüksək səviyyədə olduğunu, mətbəxinin zəngin, mədəniyyətinin yüksək, həm onların mehribanlıqla qarşılandıqlarını, xalqımızın qonaqpərvərliyini xüsusi qeyd etdilər. Onlar həm də Bakının gözəlliyinə heyran olduqlarını bildirdilər.

Azərbaycan mükəmməl təşkilatçılıq bacarıqları nümayiş etdirərək COP-un hər kəs üçün rahat, yüksək və təhlükəsiz, funksional mühit yaratmağa nail oldu. Təhlükəsizlik, peşəkarlıq, qonaqlama, kommunikasiya sahəsində bütün detallar düşünülmüşdü. Ölkəmiz öz potensialını maksimum nümayiş etdirə bildi. Azərbaycan bir daha bu cür yüksək təşkilatçılıq, ən yeni həllər tətbiq etməklə hər kəsi heyrətləndirdi, özünü müasir, dinamik inkişaf edən, dünya ilə ayaqlaşan ölkə kimi tanıtdı. Azərbaycan inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpülərin qurulması və həmçinin COP29 Azərbaycan üçün yalnız diplomatik uğur deyil, həm də gələcək nəsillər üçün dayanıqlı, yaşıl və innovativ iqtisadiyyat qurmaq üçün möhkəm təməl oldu",

COP29 inkişaf etməkdə olan ölkələr üçün iqlim maliyyələşdirilməsini gücləndirmək, karbon bazarlarını aktivləşdirmək və gənclərin iqlim fəaliyyəti sahəsində ön sırada yer almasının vacibliyini vurğulamaq baxımından keyfiyyətli bir dönüş nöqtəsi yaratmağa müvəffəq oldu. Eyni zamanda bu nailiyyətlərin ekoloji tarazlıq və iqlim ədalətinə doğru böyük bir addım olduğu qeyd olunub.

COP30 isə Braziliyada, Amazon bölgəsindəki Belendə keçiriləcək.. Braziliyada baş tutacaq COP30 bütün ölkələr arasında möhkəmlənəcək əməkdaşlığın nümunəsi olmalıdır.

**Rəqsanə ƏSGƏROVA**
**AMEA vitse-prezidentinin köməkçisi, yer elmləri üzrə fəlsəfə doktoru**